

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 93 (21.754)

17 may 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynı qəbul edib.

Prezident İlham Əliyev Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynın ölkəmizə böyük nümayəndə heyəti ilə bundan əvvəlki səfəri zamanı onunla görüşünü xatırladıb. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanın yəhudi icması ölkəmizdə digər xalqların nümayəndələri ilə birlikdə dinc və əmin-amanlıq şəraitində yaşayır.

Söhbət zamanı Azərbaycanda bu ilin “İslam Həmrəyliyi İli” elan olunması, hazırda Bakıda İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi və yüksək səviyyədə təşkil edilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun mədəniyyətlərarası dialoqun gücləndirilməsi işinə ölkəmizin töhfəsi kimi dəyərləndirilib, Azərbaycanda multikulturalizm mühitinin təmin olunmasının əhəmiyyətindən danışılıb və bu istiqamətdə görülən tədbirlərin maraqla izlənildiyi qeyd olunub.



## Beynəlxalq Ailə Günü qeyd edilib

***Mayın 15-də Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan şəhərindəki “Təbriz” mehmanxanasında tədbir keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək muxtar respublikamızda ailələrə göstərilən dövlət qayğısından danışıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov tədbirdə çıxış edərək deyib ki, ölkəmizdə sosial sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən birini məhz ailə siyasəti təşkil edir. Azərbaycanda dövlət ailə siyasətinin formalaşması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ailə dəyərlərini xalqımızın ən böyük sərvəti hesab edən ulu öndərimiz bu dəyərlərin yaşadılmasını daim diqqətdə saxlayırdı. Bunun da nəticəsində Azərbaycan Respublikasında ailə institutunun qorunması istiqamətində zəruri qanunvericilik bazası yaradılıb.

Rəhman Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. Ölkəmizdə ailələrə xüsusi diqqət göstərilir, ailə üzvlərinin sağlamlığı, təhsil alması üçün lazımi şərait yaradılır. Ailələrin maddi təminatını yaxşılaşdırmaq məqsədilə əməkhaqları, pensiya və müavinətlər artırılır, yeni iş yerləri yaradılır, müxtəlif sosial tədbirlər həyata keçirilir.

“Muxtar respublikamızda da dövlət ailə siyasəti uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikasında 96 minə yaxın ailə yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bu ailələrin maddi və mənəvi tələbatlarının ödənilməsi, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir”,– deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri qeyd edib ki, aztəminatlı ailələr, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş və ya şəhid olmuş vətəndaşların ailələrinin mənzillə təminatı diqqətdə saxlanılır, onların sosial müdafiəsi gücləndirilir. Gənc ailələrin mənzillə təminatları üçün də əlverişli şərait təmin olunub.

Diqqətə çatdırılıb ki, aparılan sosialyönümlü iqtisadi siyasətin nəticəsində hazırda muxtar respublikanın, demək olar ki, bütün kəndlərində müasir infrastruktur yaradılıb. Müasir məktəblər, kənd və xidmət mərkəzləri, musiqi məktəbləri istifadəyə verilib, gələcəyimiz olan gənclərin yaxşı təhsil alması, istedadların üzə çıxarılması üçün hər cür şərait yaradılıb. Əvvəllər ucqar dağ kəndində yaşayan bir şagirdin öz kəndində müasir məktəbdə təhsil alması xəyal idisə, indi bu, günümüzün reallığıdır. Bununla yanaşı, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsil alması da diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” fiziki imkanlarının məhdudluğundan asılı olmayaraq, uşaqların cəmiyyətə inteqrasiyası, müasir tələblər səviyyəsində təhsil almasında mühüm rol oynayır. Bütün bunlar isə gələcəyimizə göstərilən yüksək dövlət qayğısının bariz ifadəsidir.

Vurğulanıb ki, muxtar respublikada əhalinin sağlamlığı, xüsusilə ana və uşaqların sağlamlığının qorunması da diqqətdə saxlanılır. Bu məqsədlə nəinki şəhər və rayon mərkəzlərində, hətta ucqar dağ kəndlərində belə, səhiyyə obyektləri inşa olunur, bu obyektlər müasir avadanlıqlarla, kadrlarla təmin edilir, səhiyyə xidmətinin səviyyəsi yaxşılaşdırılır. Muxtar respublika əhalisinin məşğulluğunun təmin edilməsi də diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” işaxtaranların səmərəli məşğulluğuna, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, onların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açıb. Qeyd olunanlar onu deməyə əsas verir ki, Naxçıvanda ailələrin yaxşı yaşaması və sosial rifah halının yaxşılaşdırılması üçün bütün imkanlar səfərbər edilib.

Çıxışının sonunda Rəhman Məmmədov Beynəlxalq Ailə Günü münasibətilə bütün ailələri təbrik edib, onlara uzun ömür və xoşbəxtlik arzulayıb.





Tədbirdə uzunömürlü, gənc və Azərbaycan Vətən müharibəsi əlili, hərbçi, musiqiçi, müəllim, qaçqın və məcburi köçkün, sahibkarlıq fəaliyyəti ilə məşğul olan, dövlət qulluqçusu və şəhid ailələri iştirak ediblər. Qonaqlardan Azərbaycan Vətən müharibəsi iştirakçısı Elxan Cəfərov, hərbçi ailənin üzvü Oqtay Həsənov çıxış edərək bu gün hər bir azərbaycanlı ailəsinə dövlət tərəfindən xüsusi qayğı göstərildiyini qeyd edib və muxtar respublikada ailələrin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Beynəlxalq Ailə Günü münasibətilə ailələrə hədiyyələr təqdim olunub.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Rəssamlar Birliyi və rayon (şəhər) icra hakimiyyətləri ilə birgə orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri, ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri və istedadlı gənclər arasında keçirilən “İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda IV muxtar respublika yazı və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıblar.

Tədbirdə Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin “Şəlalə” instrumental ansamblının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs qrupunun, nümunəvi musiqiçi ailələrin üzvlərinin və Naxçıvan şəhərindəki 11 nömrəli uşaq bağçası fidanlarının ifaları alqışlarla qarşılanıb.

✍ **Fatma BABAYEVA**

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisasının III və IV kurs tələbələri ilə görüş keçirilib.*

## İstehsalat təcrübəsində olan tələbələrlə görüş keçirilib



Tədbiri rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov açaraq bildirib ki, bu gün muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə yiyələnmələri daim diqqət mərkəzində saxlanılır. Təhsilin inkişafı, tələbələrin nəzəriyyə ilə yanaşı, təcrübi biliklərə yiyələnmələri, ən əsası isə müxtəlif sahələr üzrə peşəkar kadrların hazırlanması işində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamı xüsusi əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, həmin sərəncamla Naxçıvan Dövlət Universitetinin, “Naxçıvan” Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Dövlət Texniki Kollecinin bir sıra ixtisasları Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyinə verilib. Bununla əlaqədar müasir rabitə sistemində texnoloji yeniliklərin, poçt işinin və yeni texnologiyaların tətbiqi ilə görülən işlərin üstünlükləri praktik olaraq tələbələrə çatdırılır. Məqsəd gələcəkdə muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində çalışacaq kadrların daha peşəkar yetişməsi, təhsil illərindən başlayaraq onların ixtisas sirlərinə dərindən yiyələnmələri, eyni zamanda bu sahənin müasir cəmiyyətdə nə qədər lazımlı, ehtiyac duyulan sahə olduğunu tələbələrə aşılamaqdır.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin sektor müdiri Asif İsayev, nazirliyin aparıcı məsləhətçiləri Hüseyn Əsgərov və Hüsniyyə Rəcəbova çıxış edərək bildiriblər ki, Naxçıvan Dövlət Universitetinin hamiliyə verilən müvafiq ixtisaslarında təhsil alan tələbələri hər il ənənəvi olaraq nazirlikdə istehsalat təcrübəsi keçirlər. Növbəti istehsalat təcrübəsi müddətində tələbələr nazirliyin müxtəlif şöbələrində və struktur bölmələrində əyani işlə tanış olub, praktik işlərə cəlb edilib. Onlara ümumilikdə, nazirliyin iş prinsipi, onun struktur bölmələri, muxtar respublikamızda yeni texnologiyaların tətbiqi barədə məlumatlar verilib.

Diqqətə çatdırılıb ki, tələbələr efirə nəzarət, radio və televiziya vericiləri, elektron təhlükəsizlik bölmələri, bununla yanaşı, poçt-rabitə sistemi haqqında ilkin məlumatlara yiyələnib, muxtar respublika ərazisində yayımlanan radio və televiziya kanallarının yayım xəritələri ilə tanış olublar. Bundan əlavə, tələbələr kiber cinayətkarlıq, onların qarşısının alınması üsulları ilə bağlı praktik biliklərə yiyələnib, “Colvir” proqramının iş prinsipi ilə tanış olub, sözügedən proqram vasitəsilə aparılan əməliyyatlar və onların yerinə yetirilməsi qaydalarını öyrəniblər.

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov və istehsalat təcrübəsində iştirak edən müəllim və tələbələr yaradılmış şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Tədbirə Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov yekun vurub.

✍ **Səbuhi HƏSƏNOV**

## Azərbaycanda ən aşağı kredit faiz dərəcəsi Naxçıvandadır

Real sektorun inkişaf etdirilməsi məqsədilə maliyyələşdirmə mexanizmini uğurla həyata keçirən muxtar respublikanın bank sektoru təklif olunan kreditlərə ən aşağı faiz dərəcəsini tətbiq etməklə ölkənin digər regionlarını geridə qoymuşdur.

Belə ki, bu ilin ötən dövrü ərzində muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən verilmiş kreditlər üzrə orta illik faiz dərəcəsi 9 faiz təşkil etmişdir. Bu göstərici Bakı şəhəri də daxil olmaqla, ölkənin digər regionlarında verilmiş kreditlər üzrə tətbiq olunan ən aşağı faiz dərəcəsidir. Belə ki, Aran iqtisadi rayonunda bu göstərici 22,2 faiz, Dağlıq Şirvan iqtisadi rayonunda 21,8 faiz, Şəki-Zaqatala iqtisadi rayonunda 21,6 faiz, Lənkəran iqtisadi rayonunda 21,5 faiz, Quba-Xaçmaz iqtisadi rayonunda 19,2 faiz, Gəncə-Qazax iqtisadi rayonunda 19,1 faiz, Yuxarı Qarabağ iqtisadi rayonunda 17,4 faiz, Abşeron iqtisadi rayonunda 15,9 faiz, Bakı şəhərində 9,1 faiz təşkil etmişdir. Ölkə üzrə kreditlərin orta faiz dərəcəsi isə 2017-ci ilin 1 aprel tarixinə 10,6 faiz olmuşdur.

***Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi***



*17 may Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günüdür*

# Naxçıvanda informasiya texnologiyalarının tətbiqi və əhatə dairəsi genişləndirilir

***Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2006-cı il 26 mart tarixli qətnaməsinə əsasən, hər il mayın 17-si "Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü" kimi qeyd olunur.***

İnformasiya cəmiyyəti anlayışı ictimai həyatın bütün sahələrində, cəmiyyətin və şəxsiyyətin həyat fəaliyyətində informasiyanın rolunun durmadan artırılmasını nəzərdə tutur. İnformasiya cəmiyyətində əhalinin böyük hissəsi müasir informasiya texnologiyalarından istifadə etməklə informasiyanın, ən əsası isə onun bir forması olan biliyin istehsalı, saxlanması, emalı və ötürülməsi ilə məşğul olur.

Azərbaycanda informasiya cəmiyyətinin qurulması dövlət siyasətinin əsas istiqamətlərindəndir. Ümummilli liderimiz Heydər Əliyev 2003-cü ildə ölkəmizdə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nı təsdiq etmişdir. Milli strategiyanın qəbulundan sonra ölkəmizdə bu sahədə kompleks tədbirlər həyata keçirilmiş, informasiya və kommunikasiya texnologiyalarının həyatın bütün sahələrində tətbiqinə başlanmış, bu sahənin inkişafı yeni mərhələyə qədəm qoymuşdur. İnformasiya texnologiyalarının inkişafına mühüm əhəmiyyət verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu sahədə məqsədyönlü tədbirlər görülür. Son illər bu sahənin inkişafı məqsədilə qəbul edilən dövlət proqramları, həyata keçirilən islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına inteqrasiyası, elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılmış, Azərbaycanın dünya kosmik məkanına inteqrasiyası təmin edilmişdir.

İnformasiya texnologiyalarının inkişafı sahəsində müəyyənləşdirilən dövlət siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir, informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. İnformasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqinə, elektron poçt-maliyyə xidmətlərinin, internetdən istifadə səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 130-a yaxın dövlət təşkilatına və 12 idman federasiyasına elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "Elektron hökumət" portalı yaradılmış, 33 dövlət orqanının xidmətləri portala inteqrasiya edilmişdir. "Elektron hökumət" portalı üzərindən rabitə, genişzolaqlı internet xidmət










haqları, elektrik enerjisi, qaz və su haqlarının ödənilməsi təşkil edilmişdir. Bundan başqa, Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri hazırlanaraq istismara verilmişdir. Bunun üçün idarələr arasında qapalı şəbəkə qurulmuş, mərkəzi server avadanlıqları alınmış və müvafiq proqram təminatı hazırlanmış, 81 təşkilatın sistemə qoşulması təmin edilmişdir.

Muxtar respublikanın yaşayış məntəqələri tamamilə telefonlaşdırılmış, bir kanal vasitəsilə telefon, internet və televiziya xidmətlərindən istifadəyə imkan verən Yeni Nəsil Telekommunikasiya sistemlərinin tətbiqinə başlanılmışdır. 2010-cu ilin may ayında Naxçıvan şəhərini, Babək qəsəbəsini, Nehrəm və Yarımca kəndlərini, 2012-ci ilin mart ayında Şərur və Sədərək rayonlarını, 2014-cü ilin fevral ayında isə Şahbuz və Babək rayonlarını əhatə edən Yeni Nəsil Telekommunikasiya avadanlıqları quraşdırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafı barədə demişdir: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. Muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

Bu ilin mart ayında Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və Çin Xalq Respublikasının "Huawei" şirkəti arasında Ordubad rayonu ərazisində Yeni Nəsil Telefon stansiyalarının qurulması ilə bağlı müqavilə imzalanmışdır.

Muxtar respublikada informasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirlər poçt sistemini də əhatə etmişdir. "Maliyyə xidmətlərinin inkişafı" layihəsinə uyğun olaraq, müasir informasiya texnologiyalarının tətbiqi, poçt sisteminin yenidən qurulması, yenitipli elektron xidmətlərin göstərilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Layihəyə uyğun olaraq, muxtar respublikada 156 poçt şöbə və bölməsi avtomatlaşdırılmış, yeni sistem üçün server qurulmuş, lazımi proqram təminatı ilə təchiz edilmişdir. Bu gün elektrik enerjisi, qaz və digər xidmət haqlarının ödənilməsi tamamilə poçt şöbə və bölmələri vasitəsilə həyata keçirilir. Bununla yanaşı, həmin poçt şöbə və bölmələrində bankomat kartları ilə, POS-terminallardan ödənişi üçün lazımi şərait yaradılmış və ümumilikdə, 154 ədəd POS-terminal quraşdırılmışdır.

Keyfiyyətli televiziya yayımı, elektron medianın inkişafı informasiya cəmiyyətinin qarşıya qoyduğu əsas tələblərdəndir. Muxtar respublikada 2012-ci ilin mart ayından etibarən rəqəmsal yayıma başlanılmışdır. Hazırda muxtar respublikanın yaşayış məntəqələrinin 100 faizində 12 televiziya kanalının və 10 radio dalğasının rəqəmsal formatda yayımı təmin edilmişdir. Muxtar respublika ərazisində İP televiziyanın yayımı təşkil edilərək sakinlərə Yeni Nəsil Telekommunikasiya Sistemi üzərindən televiziya kanallarını izləmək və digər xidmətlərdən yararlanmaq imkanı yaradılmışdır.

Yeni optik kabel magistrallarının tikintisi böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsində vacib şərtdir. Bu gün muxtar respublikada fiber-optik telekommunikasiya xətlərinin uzunluğu 1425 kilometrə çatdırılmış, mövcud telekommunikasiya şəbəkəsinin 97 faizi optik şəbəkəyə birləşdirilmişdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, 2012-ci ilin avqust ayından etibarən Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrasına başlanmışdır. Muxtar respublika ərazisində 187 fərdi, 16 çoxmənzilli binaya optik kabel çəkilmişdir. Muxtar respublikanın daxili telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi məqsədilə ümumi uzunluğu 242 kilometr olan Sədərək-Ordubad arası böyüktutumlu fiber-optik kabel magistral xəttinin tikintisi də başa çatdırılmışdır.

Optik şəbəkənin genişlənməsi əhalinin internetdən istifadə imkanlarını da xeyli artırmışdır. Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, muxtar respublikaya daxil olan internetin sürəti artırılmış, ümumtəhsil məktəblərində quraşdırılan kompüterlərin 84 faizi internetə qoşulmuşdur. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə simsiz internet xidmətləri göstərilir. 2016-cı il oktyabr ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Naxtel 4G mobil rabitə şəbəkəsi istifadəyə verilmişdir. Muxtar respublikanın bütün yaşayış məntəqələrini əhatə edən 98 baza stansiyası, fiber-optik əsaslı arabağlantı şəbəkəsi və Mərkəzi İdarəetmə Sistemi qurulmuş, "Naxtel"in " Qeydiyyat və hesabat" sistemi üçün əsas və ehtiyat server avadanlıqları, proqram təminatı hazırlanmışdır. Həmçinin Naxtelin fəaliyyəti üçün zəruri olan Müştəri Xidmətləri Mərkəzləri, Məlumat Sorğu Xidməti və digər xidmətlər yaradılmışdır. Hazırda muxtar respublikada 4 mobil operator xidmət göstərir. Bütün bunlar informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin uğurlu nəticələridir.

Muxtar respublikada informasiya texnologiyalarının ayrı-ayrı sahələrdə də tətbiqinə diqqət yetirilir. Belə ki, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının, Naxçıvan Dövlət Universitetinin kitabxanasının bazalarında elektron kitabxanalar yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi və AMEA-nın Naxçıvan Bölməsi üçün isə elektron kitabxana və elektron arxiv sistemi istifadəyə verilmişdir. Məhdud Fiziki İmkanlıların İnformasiya Mərkəzində görmə qabiliyyəti məhdud olanlar üçün audio kitabxana, eşitmə məhdudiyyəti olanlar üçün elektron kitabxana yaradılmışdır. Distant təhsilin təşkili məqsədilə 150 şagird yerlik distant təhsil sistemi qurulmuş və Distant Təhsil Mərkəzi istifadəyə verilmişdir.

Muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün muzeylərin hamısına optik kabel çəkilmiş, server alınmış, lazımi proqram təminatı və infrastruktur qurulmuşdur. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin veb saytında e-təhsil bölməsi yaradılmışdır.

***İnformasiya cəmiyyətinin formalaşması prosesi mürəkkəb və çoxşaxəlidir. Odur ki, muxtar respublikada bundan sonra da informasiya texnologiyalarının inkişafı daim diqqət mərkəzində saxlanılacaq, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçiriləcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Şəbəkə texnologiyalarının müasir inkişaf tendensiyaları

*Bu mövzuda Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin və "Naxçıvan" Universitetinin birgə təşkilatçılığı ilə elmi-praktik konfrans keçirilib. Ali təhsil ocağındakı bu tədbiri giriş sözü ilə universitetin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli açıb.*



Tədbirdə universitetin Riyaziyyat və informatika kafedrasının müdiri Məftun Əliyevin "İnternet şəbəkəsinin müasir cəmiyyətdə yaratdığı yeni reallıqlar", həmin kafedranın müəllimi Şamil Hümbətovun "İnformasiya texnologiyalarının telekommunikasiya şəbəkələrinə konvergensiyası", Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşı Hüseyn Əsgərovun "Peyk rabitəsinin imkanları", Riyaziyyat və informatika müəllimliyi ixtisasının III kurs tələbəsi Turqanə Nuriyevanın "İnternetin günümüzdə fayda və ziyanları" mövzularında çıxışları dinlənilib.

Çıxışlarda bildirilib ki, müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilib. Onun əhatə dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, təhsili, mədəniyyəti və demək olar ki, həyatın bütün sahələrini əhatə edib. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya-kommunikasiya texnologiyalarının (İKT) yaratdığı üstünlüklərdən faydalanır və nəticədə, iqtisadi sahədə böyük uğurlara imza atırlar.

Vurğulanıb ki, İKT-nin inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir. Bu prosesin zəruriliyi müasir dövrdə daha çox hiss olunur. Yeni texnologiyaların sürətli inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar açır. Ölkəmizdə də informasiya cəmiyyətinin qurulması və kompüterləşmə sahəsində uğurlu addımlar atılıb. Məhz bu səbəbdən də son illər təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə prioritet istiqamətlərdən birinə çevrilib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Nuray ƏSGƏROVA**

# Bu təhsil ocağında bilikli, vətənpərvər gənclər yetişdirilir

***Füsunkar gözəlliyi ilə göz oxşayan Şahbuz rayonu həm də özünün təhsil ənənələri, səsi-sorağı ölkəmizin müxtəlif elm ocaqlarından, tədris müəssisələrindən gələn elm adamları ilə tanınır. Davamlı dövlət qayğısı hər il rayonda təhsil sahəsində yeni uğurlar qazanılmasına şərait yaradıb. Bölgədə 23 tam orta məktəb və 6 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Dövlətimizin təhsil işçiləri qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsində səy və bacarığını səfərbər edən təhsil ocaqlarından biri Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdir.***



Bu təhsil ocağı 1930-cu ildə ibtidai məktəb kimi fəaliyyətə başlayıb. Bir qədər sonra 7 illik məktəbə, 1954-1955-ci tədris ilindən isə orta məktəbə çevrilib. Fəaliyyət göstərdiyi dövrdə xeyli uğurlara imza atıb. Qürurvericidir ki, orta təhsillərini bu məktəbdə almış Arif Həşimli Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür. Əyyub Quliyev Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 5 elmlər doktoru, professor, 20-yə yaxın fəlsəfə doktoru hazırda ölkəmizin müxtəlif ali məktəblərində fəaliyyət göstərirlər. Bu gün adıçəkilən təhsil ocağında onların ardıcılları yetişdirilir. Pedaqoji kollektiv çalışır ki, cəmiyyətə intellektual səviyyəli, həm də vətənpərvər gənclər yetişdirilməsinə nail olsun. Bu vəzifənin öhdəsindən gəlmək üçün məktəbdə hərtərəfli şərait var. Belə ki, 2007-ci ildə yeni məktəb binası tikilib, 15 kompüterdən ibarət kompüter sinfi, 3 laboratoriya, 1 kitabxana, idman zalı, 4 elektron lövhə müəllim və şagirdlərin istifadəsinə verilib. Məktəbin açılış mərasimində: ***"Bu gün tikilib istifadəyə verilən məktəb gələcəyin qapısıdır. İndi biz öz gələcəyimizin açılışını edirik. Biz bu gün belə bir məktəb istifadəyə veririksə, müəyyən nailiyyətlər qazanırıqsa, deməli, bundan da böyük uğurlar qazanmaq üçün zəhmət çəkmək, əziyyət çəkmək, intizamlı və tələbkar olmaq lazımdır. Bütün bu prinsiplər günü-gündən yüksəlir"***, – deyən Ali Məclisin Sədri bunu da diqqətə çatdırıb: ***"Bu ölkəni qorumaq, inkişaf etdirmək üçün onun təhsilli, vətənpərvər insanları olmalıdır".***

Bu tövsiyələri özünə fəaliyyət proqramı kimi götürən pedaqoji kollektivin uğurları ilbəil artır. Təhsil ocağının direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Məhərrəm İsmayılov deyir ki, məktəb 2010-2011-ci tədris ilinin yekunlarına görə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 iyun tarixli Sərəncamı ilə "50 ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub. Həmin tədris ilində məktəbin məzunlarından Sirac Sultanlı 672 balla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında oxumaq hüququ qazanıb, Prezident təqaüdünə layiq görülüb. Sonrakı illərdə də məktəbin əldə etdiyi göstəricilər ürəkaçan olub. Bu baxımdan ötən tədris ilinin nəticələri də qənaətbəxşdir. Həmin il ali məktəblərə qəbul üçün sənəd təqdim edən 29 məzundan 22 nəfəri respublikanın müxtəlif ali məktəblərinə, 6 nəfər isə orta ixtisas məktəblərinə qəbul olub. Məzunlardan 4 nəfəri 500-dən yuxarı, 2 nəfəri 600-dən yuxarı bal toplayıb. Onlardan Dilarə Şahgəldiyeva 650 balla Naxçıvan Dövlət Universitetinə qəbul olunub. O, respublika üzrə keçirilən fənn olimpiadasında (tarix fənni üzrə) III yerə çıxıb. Dilarə orta məktəbi gümüş medalla bitirib.

Bu gün məktəbdə 512 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə məşğul olan müəllimlərdən 2 nəfəri Azərbaycan Respublikasının, 1 nəfəri Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adına, 2 nəfəri "Tərəqqi" medalına layiq görülüblər. Pedaqoji kollektivin 2 nəfəri "İlin müəllimi" müsabiqəsinin qalibidir. Məktəbin şagirdləri bu il keçirilən sınaq-test imtahanında göstərdikləri yüksək nəticələrə görə fəxri fərmanlarla təltif ediliblər.

Müəllim və şagirdlərin, nəticə etibarilə, məktəbin qazandığı uğurların təməlində dayanan amillərdən biri və başlıcası təhsilə göstərilən hərtərəfli dövlət qayğısıdır. Ancaq o da var ki, belə qayğı bütün məktəblərimizi əhatə etsə də, qazanılan nəticələr bütün təhsil ocaqlarında eyni səviyyədə deyil. Haqqında bəhs etdiyimiz məktəbin yüksək nailiyyətlər qazanmasının sirlərini təhsil ocağının müəllimlərindən öyrənmək istədik. Onlarla həmsöhbət olduq. Müəllimlərin söhbətlərindən hiss etmək çətin deyildi ki, onlar cəmiyyət üçün əsl vətəndaş yetişdirmək kimi məsuliyyətli bir vəzifənin həyata keçirilməsinə böyük önəm verir, bu prosesdə kollektivin hər bir üzvünün fəal iştirakı təmin olunur.

"Tərəqqi" medallı Rauf Bağırov tarix müəllimidir. Deyir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsil işçilərinə göstərdiyi qayğı, onlar qarşısında müəyyənləşdirdiyi vəzifələr bir ali məqsədə söykənib: dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər vətəndaşlar tərbiyə etmək. Çünki gələcəyimizin necə olacağı məhz belə vətəndaşlardan asılıdır. Bu məsul vəzifənin yerinə yetirilməsində müasir tədris üsullarına geniş yer veririk. Bu heç də bütün ənənəvi üsulların üstündən xətt çəkmək deyil. Düzdür, bu gün zamanla səsləşməyən bəzi metodlar var, ancaq kollektiv artıq onların özünü doğrultmadığını görür. Məsələn, sübut olunub ki, "Hafizə məktəbi" bugünkü məktəbliyə heç nə vermir. Zaman dəyişdikcə hər gün müxtəlif yeniliklər həyatımıza daxil olur. Həssas müəllim bunu görür və fəaliyyətini də bu istiqamətdə qurur, nəticəsinin uğurlu olması onu daha da ruhlandırır. Bu isə qarşımıza qoyulan vəzifənin layiqincə yerinə yetirilməsində başlıca amildir.

Azərbaycan Respublikasının Əməkdar müəllimi Məlahət Haqverdiyeva:

– Sinifdə neçə şagird varsa, bir o qədər də xarakter var. Əgər əlinə jurnal alıb sinfə girən müəllim bunu dərindən dərk edirsə, o, nailiyyət qazanmaya bilməz. Fərdi yanaşma və sinfin ümumi fəallığının təmin olunması tədrisin səviyyəsinin yüksəldilməsində böyük təsirə malikdir. Çalışırıq ki, fəaliyyətimizdə bunları diqqətdə saxlayaq. Çoxillik təcrübəmdə bu metoddan istifadə etməyin effektiv olduğunu görmüşəm. Bizimlə birgə çalışan gənc müəllimlərə də bunu tövsiyə edirəm.

Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Mehriban Həsənova deyir ki, təlim-tərbiyə prosesinin tərkib hissələrindən biri məktəbdə sinifdənxaric və məktəbdənkənar tədbirlərin keçirilməsidir:

– Etiraf edək ki, bəzən bu tədbirlər tədbir keçirmək xatirinə təşkil olunur. Ona görə də yorucu keçir və şagirdin yaddaşında iz qoymur, çəkilən zəhmət hədər gedir. Çalışırıq ki, tədbirlər hazırlananda şagirdlərin sərbəstliyi, təşəbbüskarlığı və fəallığı təmin olunsun. İlboyu müxtəlif əlamətdar və tarixi günlər, bayramlar münasibətilə keçirdiyimiz tədbirlərə ciddi diqqət yetiririk. Elə bu dərs ilində əlamətdar günlərlə bağlı keçirdiyimiz tədbirlər çox yaddaqalan olub. Belə tədbirlər həm də tədris məşğələlərində verilmiş biliyin möhkəmləndirilməsində mühüm rol oynayır.

"İlin müəllimi" müsabiqəsinin qalibi Növrəstə Xudiyeva təhsilin səviyyəsinin yüksəldilməsində müxtəlif metodlarla yanaşı, şagirdlərin mütaliə mədəniyyətinin inkişaf etdirilməsini də vacib sayır. O, bu işdə məktəb kitabxanasının da üzərinə mühüm vəzifə düşdüyünü deyir:

– Bu gün məktəbimizin kitabxanası klassik və müasir Azərbaycan, həmçinin dünya ədəbiyyatı nümunələri ilə zəngindir. Bu xəzinədən istifadə etmək üçün kitab müzakirələrinin keçirilməsini, kitabxanaya gətirilmiş yeni kitabların sərgilərinin təşkil edilməsini diqqətdə saxlayırıq ki, bu da uşaqlara əlavə biliklər verməklə yanaşı, onlarda mütaliə mədəniyyəti formalaşdırır. Bəzən səhv olaraq deyirlər ki, uşaqlarda mütaliəyə marağı gücləndirmək üçün ədəbiyyat fənnindən ayrılmış sinifdənxaric oxu materialları kifayətdir. Əslində, belə deyil. Kitabxanada müxtəlif humanitar və dəqiq elmlərlə bağlı kitablar da var. Onlardan necə istifadə olunmalısı üçün bütün müəllimlər məsuliyyət daşıyır və yaxşı haldır ki, həmkarlarım bu məsələdə öz vəzifə borclarına həssaslıqla yanaşırlar.

"İlin müəllimi" müsabiqəsinin qalibi olan kimya müəllimi Sahibə Seyidova dərnəklərin düzgün təşkilindən, məktəbin tanınmış məzunları, müharibə və əmək veteranları, bu təhsil ocağını bitirib ali məktəblərdə oxuyan tələbələrlə görüşlərin keçirilməsindən danışır:

– Bu tədbirlər şagirdləri həyatda layiqli yer tutmaq üçün daha yaxşı təhsil almağa sövq edir. Onlar görüş keçirdiyimiz alimlərimizin, tələbələrimizin, müharibə və əmək veteranlarımızın yollarını davam etdirməyi arzulayır, bu arzulara çatmağın təməlində yalnız elmlərin sirlərinə dərindən bələd olmaq bacarığı durduğunu dərk edirlər.

***

*Növbəti dərs ilinin başa çatmağına az qalıb. Məktəbdəki görüşümüzün, müəllimlərlə söhbətlərin nəticəsi belə qənaət yaratdı ki, Şahbuz şəhərindəki 1 nömrəli tam orta məktəbin kollektivi 2016-2017-ci tədris ilini də uğurla başa vurmaq üçün möhkəm əzmlə çalışır, yeni nailiyyətlərə imza atmaq üçün səy və bacarığını əsirgəmir.*

**✍ Muxtar MƏMMƏDOV**

***Muxtar respublikada işaxtaran və işsiz vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilir.***

## Əhalinin işlə təminatı diqqət mərkəzindədir



Cari ilin aprel ayında 288 işaxtaran vətəndaş məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 2 nəfər kvota yerlərinə göndərilmiş, 35 nəfər müvafiq peşə kurslarına cəlb edilmişdir. Keçirilən əmək yarmarkalarında 206 işaxtaran peşə və ixtisasına uyğun işlə təmin olunmuşdur.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunur. Aprel ayında bərbər-manikürçü kursunu 18 nəfər bitirmişdir. Hazırda bərbər, dayə və xalçaçı peşələri üzrə kurslar davam etdirilir. Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində 12 məhkum aşpaz köməkçisi kursuna, 12 məhkum isə bərbər kursuna cəlb edilmişdir.

Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı 67 obyektdə nəzarət aparılmış, işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsi ilə əlaqədar 27 obyektdə nəzarət tədbirləri görülmüşdür.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Reabilitasiya təlimlərinə, ümumilikdə, 121 uşaq cəlb olunmuşdur. Tədrisə cəlb olunan hərəkət və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün distant dərslərin keçilməsi davam etdirilmişdir. Müvafiq dövrdə Şərur rayonunun Danyeri kəndində yaşayan sağlamlıq imkanları məhdud bir uşaq distant təhsilə cəlb edilmiş, həmçinin distant təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud 2 uşağa məktəbli geyim dəsti və dərs ləvazimatları verilmişdir.

Aprel ayında tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 245 ahıl və fiziki imkanları məhdud şəxsə evlərində, həmçinin 13 nəfərə Ahıllar evində stasionar sosial xidmət göstərilmişdir. Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 12 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 6 uşağın müalicəsi təşkil edilmişdir. Həmçinin 12 nəfər texniki reabilitasiya vasitəsi ilə təmin olunmuş, 13 məhdud fiziki imkanlıya protez-ortopedik bərpa xidməti göstərilmiş, 4 nəfərin sosial məişət şəraiti yaxşılaşdırılmış, 5 nəfərin respublika daxilində müalicəsinə köməklik edilmişdir.

18 yaşadək sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrin uşaqları arasında bədii qiraət üzrə şeir müsabiqəsinin, autizmli uşaqların valideynləri ilə maarifləndirici görüşün keçirilməsi, "İnam" musiqi qrupunun Ordubad rayonunda yerləşən "N" hərbi hissənin zabit və əsgərləri qarşısında konsert proqramı ilə çıxış etməsi, Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzanın 30-cu ildönümü münasibətilə təşkil edilmiş tədbirlər, paralimpiyaçılar arasında idmanın armresling (qol güləşi) növü üzrə keçirilən muxtar respublika birinciliyi də aprel ayının yaddaqalan tədbirlərindən olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Naxçıvanda əmək pensiyaları vaxtında ödənilir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2017-ci ilin aprel ayı ərzində əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmış, pensiyaçıların şəxsi hesablarına 10 milyon 563 min 538 manat köçürülmüşdür. Bu dövrdə fondun gəlirləri 4 milyon 356 min manat proqnoza qarşı 5 milyon 497 min 520 manat icra olunmuş, 1 milyon 141 min 520 manat çox vəsait yığılmışdır.

2017-ci ilin aprel ayında "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 250 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Yeni təyin olunan pensiyaçılardan 163-ü yaşa görə, 26-sı əlilliyə görə, 61-i isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olmuşdur. Hesabat ayında yeni təyin olunan əmək pensiyaçılarına və istifadə müddəti başa çatan plastik kartların yeniləri ilə əvəzlənməsi üçün müvafiq müvəkkil banklara 1859 plastik kart sifariş verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətindən aldığımız məlumata görə, ötən ay xidmətə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 654 müraciət daxil olub. Daxil olmuş müraciətlərdən 90-ı əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır.

Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Ötən ay ərzində olduğu yer üzrə qeydiyyatla bağlı xidmət tərəfindən 564 müraciət qeydə alınaraq icrası təmin edilib. Həmin müraciətlərin 159-u xidmətin sərhəd-buraxılış məntəqələrində fəaliyyət göstərən bölmələri tərəfindən qəbul və icra olunub.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

*İnsan yaşa dolduqca qayğıya, sevgiyə, hörmətə ehtiyacı daha da artır. Ömürlərini övladlarına həsr etmiş, saçlarını yuxusuz gecələrdə, qayğılı günlərdə ağartmış valideynlərin bəziləri qayğıya, diqqətə möhtac olduqları vaxt, təəssüf ki, diqqətdənkənar, köməksiz, tənha, kimsəsiz qalmağa məcbur olurlar. Hətta bəzən cəmiyyətimizdə valideynlərini Ahıllar evinə qoyan vicdanı kasad övladlara da rast gələ bilirik. Bəzən də onları taleyin amansız, acımasız hökmü tənha yaşamağa məcbur edir.*

# Xeyirxahlıq ən yüksək insani keyfiyyətdir

## *Muxtar respublikamızda yaşayan tənha ahıllar bunu daha yaxından hiss edirlər*

Bu gün isə onlar özlərini tənha, kimsəsiz hesab etmirlər. Çünki onlara sahib çıxılır, sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən uğurlu addımlar atılır, davamlı tədbirlər, islahatlar həyata keçirilir. Ölkəmizdə olan bütün ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi daim dövlətimizin diqqət mərkəzində saxlanılır. “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”na əsasən, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Həmin tədbirlər ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan verir.

Muxtar respublikamızda da yaşlı, ahıl insanların problemlərinə həssaslıqla yanaşılır. Ahıl vətəndaşlara daim qayğı göstərilir, sağlamlıqlarının qorunması, sosial şəraitlərinin yaxşılaşdırılması və müalicələrinin təşkilinin təmin olunması diqqət mərkəzində saxlanılır. Ahılların asudə vaxtlarının səmərəli təşkili, mədəni və ictimai həyatda fəal iştiraklarının təmin edilməsi istiqamətində tədbirlər görülür.

Naxçıvanda say etibarilə 200 nəfərdən çox tənha ahıl vətəndaşa sosial-məişət xidməti göstərilir və bu tədbirlər dövlət səviyyəsində həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ictimai əsaslarla təyin olunan əməkdaşlar həftənin müəyyən günləri tənha ahıl vətəndaşların evlərinə gedərək onlara xidmət edirlər.

Dövlətin bu qayğısından yararlanan tənha ahıllardan biri, Naxçıvan şəhərinin Əliqulu Qəmküsar məhəlləsində yaşayan Bulqeyis Hüseynovanın evinə yollandım. Qapını döydükdə, “kimdi?” – deyə soruşan nənəyə – Allah bəndəsiyəm, ay nənə, sənə baş çəkmək üçün gəlmişəm dedikdə – qapını təəccüblə açan, eyni zamanda eşitdiyi sözdən qəlbindəki sevinci üzündə əks olunan nənəni qarşımda gördükdə kövrəlməmək üçün özümü güclə saxladım. Elə astanadaca məni öz doğma balası kimi bağrına basaraq içəri dəvət etdi. Yol gələrkən zehnimdə canlandırdığım “evə çökmüş sükut, dörd divar və bir qadın” mənzərəsindən əsər-əlamət yox idi. Səhər radələrində ora getməyimə baxmayaraq, artıq evdə xidmət göstərən əməkdaşlar nənəyə qulluq edirdilər.



Onlar mənə “xoş gəlmisiniz” deyərək, nə məqsədlə gəldiyim haqda maraqlandılar. Bir neçə dəqiqəlik tanışlıqdan sonra qürurverici, eyni zamanda xeyirxah əməllərindən söhbət açdılar. Əməkdaşlardan biri, həmsöhbətimiz Nubar İsmayılovanın dediklərindən: “2004-cü ilin avqust ayından Bulqeyis ananın evində ona xidmət edirəm. Neçə illərdir ki, həvəslə öz anam kimi onun qulluğunda dururam. Dövlətin qayğısını çəkdiyi Bulqeyis nənə kimi neçə-neçə belə yaşlı ana-atalar var. Demək olar ki, biz hər günümüzü onlarla birlikdə keçiririk. Həftənin şənbə günləri isə evdə xüsusi təmizlik işləri gördüyümüzdən hər evə iki əməkdaşla birlikdə gedirik. Onların ehtiyaclarını qarşılayır, lazım gəldikdə özlərinin aldıqları təqaüdlə ərzaqlar alır, kommunal xərclərini ödəyirik. Bu xidmətin qarşılığında isə dövlətimiz tərəfindən məvacib alırıq. Hər birimiz çalışırıq ki, Bulqeyis ana və onun kimi neçə belə tənha, ahıl ata-analarımızın könlü xoş olsun. Onsuz da tale onların üzünə gülməyib, barı az da olsa, biz onların könüllərinə məlhəm olaq. Yaşlılar hər zaman bir xoş sözə, doğma nəfəsə, qayğıya möhtacdırlar. Taleyin hökmünü bilmək olmaz, kimə harda, necə, hansı qisməti yazır. Mən dövlətimə, hər şeydən əvvəl, ona görə minnətdaram ki, mənim belə xeyirxah əməl sahibi olmağıma imkan yaradıb”.

Nubar xanımın söhbətindən belə qənaətə gəldim ki, onlar arasında köməkçi və qadın münasibətindən çox ana-bala münasibəti yaranıb. Xoş münasibət uman ahıllara sosial xidmətdən əlavə, əməkdaşlar həm də mənəvi dəstək olurlar. Dost kimi söhbət edir, dərdlərinə şərik olmağa çalışırlar.

80 yaşlı Bulqeyis nənənin uzun illər tək yaşamasının səbəbi, sözün düzü, məni çox düşündürürdü. Lakin acı xatirələrini yada salıb, onu incidərəm deyə, keçmişdən söhbət açmağa ehtiyat edirdim. Çox keçmədi, sanki marağımı hiss edirmiş kimi, dərin bir ah çəkərək, keçmişi özü yada salıb, əzab-əziyyətli, keşməkeşli ömür yolundan doluxsunaraq söhbət açdı: “İllər əvvəl, hələ 17 yaşımda ailə həyatı qurdum. Bir oğul sahibi oldum. Bəxtəvər günlərimdən çox keçmədi ki, yoldaşımı da, oğlumu da bir qəzada itirdim. Sonra qaldım tək-tənha. Sözün açığı, illər əvvəl qocalıqda tənhalıq qorxusu məni çox narahat edirdi. Nə bir qapımı döyənim, nə bir halımı soruşanım var idi. Hələ ötən əsrin 90-cı illərinin o çətinliklərini, qıtlığını, yoxluğunu demirəm. O vaxtlar nə böyüyə, nə kiçiyə belə qayğı, diqqət yox idi. Allahın suyu belə, gah gələr, gah gəlməzdi. O məhəllədən, bu məhəllədən su daşıyardıq. Qışın oğlan çağında evdə soyuqdan dişim-dişimə dəyər, odun tapsam ocağımı qalayar, tapmasam da yun şalıma bürünüb, saatlarla sönən işığın yanmasını gözləyərdim ki, pilətənin zəif istisinə qızınam. İndi nə evimin şəraitindən bir narazılığım, nə də ürəyimdə məni narahat edən tənhalıq qorxusu var. Neçə illərdir ki, nazımı çəkən, əlimdən tutan, evimi səliqə-sahmana salan, hər şeydən əvvəl, mənə həyan olan övladlarım, dövlətin məni əmanət etdiyi qayğıkeş oğullarım, qızlarım var”.

Zəhmət dolu, çəfalı ömür sürən bu nənənin yaşadığı ağrı-acılı, əziyyətli, bir o qədər də ləyaqətli, dözümlü, məğrur həyat Azərbaycan qadınının ülviliyini, böyüklüyünü, səbrini, dözümlülüyünü bir daha sübut edir. Görünür, taleyin bu ağır sınağı onun yaşamaq həvəsini azaltmayıb, qəlbindəki ümid işığını söndürə bilməyib. Dövlətin ahıllara göstərdiyi qayğı və diqqət ona bütün çətinlikləri artıq çoxdan unutdurub. İllərin yorğunluğunu çiyinlərindən uzun müddətdir ki, atan Bulqeyis nənə bu günündən ürəkdolusu danışarkən, bu dövrədə yaşadığım üçün Tanrıya şükür edib, bu dövlətin vətəndaşı, bu Vətənin övladı olduğum üçün bir daha qürur duydum.

Hər bir insan ona həyat bəxş edən, onu dünyaya gətirən, onun qayğısını çəkən, boya-başa çatdıran valideynlərinə alın qırışdırmadan, səbirlə, həvəslə, sevgiylə yanaşmalı, qayğısını çəkməli, mehriban münasibət göstərməlidir. Gələcək nəsillərə nümunə olan ahıllara hörmət və qayğı həm də nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək kimi mühüm amala xidmət edir. Bu mənada, muxtar respublikada ahıl vətəndaşlara göstərilən xidmətlərin həcminin ilbəil artması, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması yüksək insani keyfiyyət kimi dəyərləndirilir.

**Gülcamal TAHİROVA**

# Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyinə sakinlər tərəfindən eksponatlar təqdim olunub

***Mayın 16-da Culfa rayonunun 7 sakini tərəfindən qədim mədəniyyətimizi və tariximizi özündə təcəssüm etdirən məişət əşyaları – küplər, yun darağı, tütək, dəmir və mis qablar, saxsı borular, qazan, çölmək, xalça, kilim, cəhrə və digər nümunələrdən ibarət 40 eksponat rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilib.***



Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, bu gün qədim diyarımızın sakinləri tərəfindən tariximizlə bağlı müxtəlif əşyaların muzeylərə təqdim edilməsi ənənə halını alıb. Eksponatların təqdim edilməsi nəticəsində muzeylərimiz zənginləşir, həm də bu günə qədər gəlib çıxmış qədim əşyalar etibarlı saxlanc yeri olan muzeylərimizdə qorunur.

Nazir bildirib ki, zəngin mədəni irsimizin qorunması və təbliği istiqamətində görülən işlər ardıcıl olaraq həyata keçiriləcəkdir. Bu məqsədlə muzeylərimizin zənginləşdirilməsi, maddi-mədəniyyət nümunələrinin toplanması işi daim diqqətdə saxlanılır. Bu işdə yaxından iştirak edən sakinlərin təşəbbüsü də təqdirəlayiqdir. Məhz ötən il vətəndaşlarımızın yaxından iştirakı ilə muzeylərimizə 1500-ə yaxın eksponat daxil olub. Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyinə daxil olan eksponatlarla birlikdə bu il 472 eksponat muzeylərə təhvil verilib. Bu eksponatlar tariximizi və mədəniyyətimizi sevən, əsl vətəndaşlıq mövqeyini göstərən insanlarımızın səyi nəticəsində toplanılıb və könüllü şəkildə muzeylərə təqdim olunub.

Sonra eksponatları muzeyə hədiyyə edən Culfa şəhər sakini Nailə Nuriyeva, rayonun Boyəhməd kənd sakini Yadulla Novruzov, Əlincə kənd sakinləri Şahin Quliyev, Sara Vəliyeva, Milax kənd sakini Elman Hacıyev, Qızılca kənd sakini Əzizə Məmmədova, Xanəgah kənd sakini Nəcəf Nəcəfov çıxış edərək bildiriblər ki, bu gün muxtar respublikada maddi-mədəni irsin qorunması, yaşadılması və gələcək nəsillərə çatdırılması sahəsində görülən tədbirlər hamımızı sevindirir. Muzeylərimizə qayğı, yeni muzeylərin yaradılması sahəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilən işlər minnətdarlıqla qarşılanır. Vətəndaşlarımız da bu işə öz töhfələrini verməyə çalışırlar.

**Əli RZAYEV**

# Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 2 iyun 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 %) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin miqdarı (manat) |
|---|---|---|---|---|---|
| 1. | “Kia Cerato” “Sedan” tipli ağ mirvari rəngli avtomobil | Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi | 17 500 | 14 875 | 875 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 % məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 30 may 2017-ci il tarixinədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitəsinin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün müəyyən olunmuş qaydada təsdiq edilmiş sənədin surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 2 iyun 2017-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

# Futbol üzrə yoldaşlıq görüşü keçirilib



*Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və 14 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə mini-futbol üzrə yoldaşlıq görüşü keçirilib.*

Məktəblər arasında dostluq və idman əlaqələrinin gücləndirilməsi məqsədilə keçirilən görüşdə Naxçıvan şəhər 14 və 17 nömrəli tam orta məktəblərin komandaları mübarizə aparıblar. Birinciliyin açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, 14 nömrəli tam orta məktəbin direktoru Gülşən Ağayeva muxtar respublikada idman sahəsində görülən işlərdən, qazanılan uğurlardan danışıblar.

İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbinin süni örtüklü mini-futbol meydançasında baş tutan görüşdə daha üstün oyun sərgiləyən 17 nömrəli tam orta məktəbin komandası meydanı 4:3 hesablı qələbə ilə tərk edib.

Sonda hər iki komandaya təşkilatçılar tərəfindən diplom və kubok təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

# “Naxçıvan Tikinti Materialları” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

19 iyun 2017-ci il tarixdə saat $10^{00}$-da “Naxçıvan Tikinti Materialları” ASC-nin səhmdarlarının tələbi ilə növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. Reqlamentin təsdiqi.*
*2. Cari məsələlər.*
*3. 2017-ci ildə görüləcək işlər.*

***İdarə heyəti***

***İtmişdir***

Filippin vətəndaşı Tanalgo Sveltenin adına Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 408